Əli Hicrani

# ORUCUN TARİXİ VƏ MƏNƏVİ DƏYƏRLƏRİ

## Ramazan ayının gözəl duaları

2005

www.ketab.ir

*Müəllif: Əli Hicrani*

**Kitabın adı: .........................Orucun tarixi və mənəvi dəyərləri**

**Nəşr edən: .................................................Məhdiyar nəşriyyatı**

**Çapxana: .............................................................................Etimad**

**Çap növbəsi:....................................................................Beşinci**

**Çap tarixi: ..........................................................................2005**

**Tiraj:...................................................................................2000**

**Kitabın çap və sair hüquqları müəllifə məxsusdur.**

**مؤلف: علی هجرانی**

نام کتاب: ............................ تاریخ و ارزشهای معنوی روزه (به زبان آذری )

ناشر: ............................................. انتشارات مهدی یار

چاپخانه: ...................................................................... اعتماد

نوبت چاپ: ..................................................... پنجم (اول ناشر)

تاریخ چاپ: ............................................................. 1384 شمسی

تیراژ: ........................................................................... 2000

شابک : 964 _ 7643 _ 69 _ 1

کلیه حقوق این کتاب برای مؤلف محفوظ است

www.ketab.ir

# MÜƏLLİFİN HƏYATI

Müəllif ustad Əli Hicrani, 1943-cü ildə İran İslam Respublikasının, Təbriz şəhərində, dindar bir ailədə dünyaya göz açmışdır. O, ibtidai dərslərini Təbrizdə oxuduqdan sonra, dini təhsil almaq üçün, 1962-ci ildə Qum elmiyyə hövzəsinə qəbul oldu. Lakin, maddi vəziyyəti yaxşı olmadığı üçün, bir neçə aydan sonra müqəddəs Məşhəd şəhərinə səfər etdi. O, məşhəd şəhərində bir neçə il, günün yarısını işləyir, başqa yarısını isə dərs oxumaqla məşğul olardı. Bir neçə il Məşhəddə yaşadıqdan sonra, İraqda olan Müqəddəs ziyarətgahları ziyarət etmək məqsədi ilə, Nəcəf və Kərbəla şəhərlərinə səfər etdi. O, müqəddəs məkanları ziyarət etdikdən sonra, Nəcəfi Əşrəfin elmiyyə hövzəsinə qəbul olub, yeddi il Nəcəfin böyük alimlərindən bəhrələndikdən sonra İrana qayıtdı. Elə bu zamandan etibarən özünün ictimai fəaliyyətini geniş şəkildə başlayıb, minbərlərdə müsəlmanları mövizə edər, dini məktəblərdə isə şagirdlərinə dərs deyərdi.

Ustad Əli Hicrani, özünün gecə gündüz çəkdiyi zəhmətləri nəticəsində, 35 yaşında müqəddəs ictihad dərəcəsinə nail olmuşdur. Lakin ustad, onu «Müctehid» yaxud «Ayətullah» kimi ləqəblərlə xitab olunmasına icazə vermir və onu bu ləqəblərlə xitab edənlərə deyir: «Ayətullah, yalnız onu gördükdə Allah yada düşə biləcək şəxclərə aiddir.Bir halda

www.ketab.ir

ki, mən özümü Allahın nişanəsi yox bəlkə, onun bəndəsi bilirəm.»

Ustad Əli Hicrani, təhqiq və mütaliəsini heç vaxt tətil etmir.

O, 1995-ci ildə, Bakıda, İslam Unversitetində, bir ildən artıq dərs demişdir. Elə o zamandan etibarən hər il orucluq və məhərrəm aylarında Azərbaycana səfər edib, dini təbliğatla məşğul olur. Ustadın tələblərindən, çoxu Azərbaycanın, müxtəlif şəhərlərində, dini xadim kimi tanınıb, dini təlimatla məşğuldurlar.

## USTADIN TƏLİFATI

Ustad, tələbəliyi dövründən, özünün təhqiqlərini başlayıb, müxtəlif mövzularda, ərəb, fars və azərbaycan dillərində kitablar yazmışdır. Onun yazdığı bu kitablardan bir neçəsi yalnız azərbaycan dilində çap olunmuşdur. Ərəb və fars dillərində yazdığı kitabların bəzisi isə müəyyən səbəblərə görə bu günə qədər çap olunmamışdır. Ümidvarıq ustadın ərəb və fars dillərində yazdığı kitabların da çap olunma şahidi olaq. Onun azərbaycan dilində yazdığı kitablar aşağıdakılardan ibarətdir.

1. Orucun fayda və hökmləri, (bu kitab ilk dəfə Bakıda üç min tirajla, İranda on min tirajla, daha sonra mübarək

Ramazan ayının gündəlik duaları və qədir gecəsinin əməlləri əlavə olunduqdan sonra beş min tirajla çap olunmuşdur).

2. Maraqlı ölü əhvalatı, (Qum şəhəri beş min tiraj).

3. Vay olsun əskik satanların halına, (Qum şəhəri üç min tiraj).

4. Vəhdət və birlik yolunun çıraqları, (Qum şəhəri beş min tiraj).

5. Adəmdən xatəmə kimi namazın mənəvi həyatı, (Qum şəhəri beş min tiraj).

Sözümün sonunda, əziz ustada həyatda uzun ömür, can sağlığı və tutduğu bu müqəddəs yolda müvəffəqiyyətlər arzulayıram.

**Məhdiyar nəşriyyatı**

www.ketab.ir

# MÜQƏDDİMƏ

Bismillahir-rəhmanir-rəhim

Bağışlayan və mehriban Allahın adı ilə

اَلْحَمْدُ لِلّهِ الَّذى لا يَبْلُغُ مِدْحَتَهُ القائِلُونَ، وَ لا يُحْصِى نَعْمائَهُ العادُّونَ وَ
لا يُؤَدّى حَقَّ شُكْرِهِ الشّاكِرُونَ وَ الصَّلاةُ وَ السَّلامُ عَلى خاتَمِ الْاَنْبِياءِ وَ
الْمُرْسَلينَ مُحَمَّدٍ وَ آلِهِ الطّاهِرين.

Əlhəmdulillahilləzi la yəbluğu midhətəhul-qailun, və la yuhsi nəmaəhul-addun və la yuəddi həqqə şukrihiş-şakirun. Vəs-səlatu vəs-səlamu əla xatəmil-ənbiyai vəl-mursəlin Muhəmmədin və alihit-tahirin.

**Bütün həmdlər, məddəhların mədhinə sığmayan, nemətlərini heç kim saya bilməyən, şükrünü şükr edənlər yerinə yetirə bilməyən, Allaha məxsusdur. Salam və salavat olsun peyğəmbərlərin xatəmi həzrəti Muhəmməd və onun pak Əhli beytinə.**

Əziz və hörmətli oxucular! Əlinizdəki bu kitab indiyə qədər bir neçə dəfə çap olunmuşdur, belə ki,1994-cü ildə 3 min, 1995-ci ildə 10 min, 1998-ci ildə 5 min və 2000-ci ildə 3 min tirajda çap olunmuşdur. Mən bacı və qardaşlarımın bu kitaba olan maraq və tələbatını görüb onu bir daha çap etdirmək qərarına gəldim. Lakin kitabın keçən nüsxələrində

www.ketab.ir

اَللّهُمَّ صَلِّ عَلى مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ وَ عَجِّلْ فَرَجَهُمْ

Əllahummə salli əla Muhəmmədin və Ali Muhəmmədin
və əccil fərəcəhum

**Ey Allah salam və salavatını peyğəmbər və onun pak əhli beytinə göndər. Və onların haqq və ədalətdən ibarət olan hakimiyyətlərini tezləşdir.**

Hörmətli oxucular, əziz bacı və qardaşlarım! Ramazan ayında oruc tutmaq ən gözəl və şərafətli ibadətlərdən biridir və insan oruc tutmaq, Quran və bu duaları oxumaq ilə dünya nemətlərindən əl götürüb, mənəvi qidalar ilə öz ruhunu qüvvətləndirər.

Ramazan ayında pak niyyətlər ilə Allaha xatir oruc tutmaq, fəqirlərin və çarəsizlərin aclıq və yoxsulluğunu yada salar və səbəb olar ki, çətinliklərdə onlara yardım edilsin.

Səy edin, bu gözəl ayda həm özünüz oruc tutun, həm qohum – əqrəbalarınıza, habelə dost və tanışlarınıza bu ulu ibaəti (orucu) və həmçinin namaz qılmağı öyrədin, ta hamılıqla bu yaxşı əməllər ilə Allaha ibadət edək və ruhumuzu mənəvi qidalarla şadlandıraq.

İlahi, Sənə görə gözəl və pak niyyətlər ilə oruc tutmağı və digər yaxşı əməlləri bizləri müvəffəq et.

**AMİN**

www.ketab.ir

# MÜNDƏRİCAT

1. Müqəddimə ....... 7
2. Ön söz ....... 12
3. Oruclua ayı ....... 13
4. Oruc ilə qısa bir tanışlıq ....... 19
5. Oruc sözünün mə'nası....... 19
6. Orucun vacib olmasının səbəbi ....... 21
7. Oruc hamıya vacibdir, yoxsa?....... 25
8. Oruc müsəlmanlara nə zaman və necə vacib edildi? ....... 27
9. Oruc müxtəlif millətlər arasında....... 27
10. Diqqət edilməsi lazım olan bir məqam. ....... 28
11. Orucun qəbul olmasının şərtləri. ....... 30
12. Əhkam. ....... 32
13. Niyyət ....... 32
14. Orucu batil edən şeylər. ....... 34
1. Yemək və içmək. 2. Cima. 3. İstimna. 4. Allah, peyğəmbər və imamlar adından yalan danışmaq. 5. Qəliz tozun hülquma yetişməsi. 6. Oruc halında suyun altına cummaq. 7. Sübh azanına qədər bilərəkdən cünub halında qalmaq. 8. Bilərəkdən qusmaq ....... 34-42
15. Oruc tutmaqdan üzürlü olan şəxslər ....... 42
1. Xəstələr. 2. Qoca kişi və qadınlar. 3. Doğumu yaxın olan hamilə qadınlar. 4. Südü az olan qadınlar ....... 42-44

16. Orucun qismləri ........................................................ 44
1. Vacib oruclar. 2. Məstəhəbb oruclar. 3. Məkruh oruclar. 4. Haram oruclar
17. Qəza orucları........................................................ 47
1. Həddi-büluğ. 2. Əql. 3. Müsəlman olduğu zaman.
4. Koma və şuhdan getmək........................................ 47-48
18. Kəffarə orucları........................................................ 51
19. Namaz ilə orucun fərqləri........................................ 55
20. Oruc halında məkruh əməllər..................................... 57
21. Kəffarəsiz qəza orucları .............................................. 59
22. Ramazan gecələrinin müstəhəbb namazları.................. 60
23. Ramazan ayının iftar duası ........................................ 64
24. Ramazan ayında namazlardan sonra oxunan dualar .... 68
25. Ramazan ayının gündəlik duaları ................................ 78
26. Qədr (Əhya) gecələrinin əməlləri ............................. 109
27. Fitr bayramı ilə qısa bir tanışlıq ............................... 116
28. Fitr və bayram namazının tarixi.................................. 117
29. Fitr bayramının subutu .............................................. 118
30. Fitr bayramının zəkatı ............................................... 119
31. Fitr bayramına aid olan bir neçə söz ......................... 122
32. Fitr bayramına aid olan bir sıra əməllər ..................... 124
33. Bayram namazının qılınma vaxtı .............................. 127
34. Bayram namazının qılınma qaydası........................... 127
35. Mübarək Ramazan ayında baş verən hadisələr ........... 133

www.ketab.ir

1. Həzrət Əbu-Talib və Xədicənin vəfatı ........................... 133
2. Bədr müharibəsi ......................................................... 134
3. İslam peyğəmbərinin Məkkəni fəth etməsi ..................... 134
4. İmam Həsən Əleyhissəlamın mövludu ........................... 136
5. Əmirəl-mö'minin Əli əleyhissəlamın şəhadəti ................ 137

www.ketab.ir